# Beynəlxalq festival və konqres (Bakı)

28 sentyabr–4 oktyabr 2019-cu il tarixlərində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsi və İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzinin (IRCICA) birgə təşkilatçılığı ilə paytaxtımızda "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı və bu çərçivədə 29–30 sentyabr tarixlərində "İslam dünyasında incəsənət və sənətkarlığın inkişaf perspektivləri" I Bakı Beynəlxalq konqresi keçirilib. Burada İslam dünyasında incəsənət və sənətkarlığın inkişaf perspektivləri müzakirə olunub.

İslam ölkələrinin incəsənəti özünəməxsus xarakter, janr və növləri ilə əsrlər boyu şöhrət qazanmışdır. Xüsusilə ərəb və başqa müsəlman ölkələrinin incəsənəti orta əsrlərdə formalaşaraq dünya xəzinəsinə daha böyük töhfələr verib.










XIV–XV əsrlərAzərbaycan incəsənətində və sənətkarlığında xüsusi yer tutur. Çox dərin və zəngin ənənələrə bağlı Azərbaycan mədəniyyəti, incəsənəti və xalq sənətkarlığının çiçəklənmə dövrü filosof və şair İmadəddin Nəsiminin yaradıcılığında və dünyagörüşündə öz əksini tapdığı üçün bu yüzillik "Nəsimi dövrü" adlanır.

İdarə əsrlərlə yaşadılmış ənənəvi sənətkarlıq növlərinə və sənətkarlara hərtərəfli dəstək olur. Siz bu gün də İçərişəhərdə xalça, zərgərlik, kəlağayı, ağacoyma-şəbəkə, dulusçuluq, metalişləmə, tikmə və s. ilə məşğul olan sənətkarların emalatxanalarına rast gələ bilərsiniz.

Festival müasir dövrdə inkişaf edən islam mədəniyyətinin gələcək inteqrasiyası üçün təsirli bir təkandır. Konqresin işinə İslam Şərqinin 35 ölkəsindən alimlər, xalq yaradıcılığı sənətkarlar, ekspertlər, dövlət orqanlarının nümayəndələri, biznes, beynəlxalq qeyri-hökumət və ictimai təşkilatlar qatılmışlar.

Konqresdə aşağıda qeyd olunan istiqamətlərdə geniş diskussiya meydanı təşkil olunub: bədii toxuculuq (tekstil, xalça sənəti, kəlağayı və s.); bədii metalişləmə (zərgərlik sənəti, misgərlik və s.); bədii oyma sənəti (daş, ağac və s.).













# Sufizmə dair müzakirə (Bakı)




Nəsimi Festivalı və I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı çərçivəsində keçirilən bu tədbirə ABŞ-ın Georgia Universitetinin professoru Alan Godlas dəvətli idi.

Professor Godlas dünya miqyaslı alim olaraq Misir, Mərakeş və Türkiyə kitabxanalarında əlyazmalar üzrə geniş araşdırmalar aparmışdır. Onun araşdırmalarına təfsir, hədis, islam mistisizmi (eyni zamanda sufizm), islam dini, modernizm və postmodernizm arasındakı əlaqələr daxildir. 1999-cu ildə sufi liderlərindən biri olan İbrahimxan Nəqşbəndi tərəfindən Özbəkistanın Kokand şəhərində Alan Godlasa islami təhsil səviyyəsini əks etdirən diplom səviyyəsində sənəd – "icazət" verilib. O, həmçinin 2004-cü ildən Sidi Şeyx Məhəmməd Əl-Camalın icazəsi ilə Şadhili təriqətinin tədrisinə başlamışdır.

Oktyabrın 28-də İçərişəhərdəki "Muğam Klub"da Alan Godlas "Kalliqrafik lövhə: Tvitter sufizmin ilkin forması" mövzusunda çıxış edib. Tədbir zamanı respublikamızın aparıcı universitetlərinin müəllim və tələbə heyətinin sufizm ilə bağlı maraqlı diskussiyaları baş tutub. Diskussiyaların davamı olaraq tarix üzrə fəlsəfə doktoru Dilavər Əzimli "Azərbaycanda sufizm haqqında" qısa məzmunlu məruzə ilə çıxış edib. ❖

**"Mədəniyyət.AZ"**